Tarix və onun problemləri, №2 2010

**RUINTƏN KƏMALƏ**
*Bakı Slavyan Universiteti*

# İRAN İSLAM RESPUBLİKASININ XARİCİ SİYASƏT PRİNSİPLƏRİNDƏ DƏYİŞİKLİKLƏR. İRANIN QAFQAZ SİYASƏTİNİ FORMALAŞDIRAN MÜASİR AMİLLƏR

XX əsrin sonları – siyasi və beynəlxalq münasibətlər sistemində dəyişikliklərin baş verdiyi və yeni dünya nizamının yarandığı bir dövrdə dünyada gedən siyasi proseslər dövlətlərin, o cümlədən İran İslam Respublikasının xarici sayasətinə əsaslı təsir göstərdi və onları öz xarici siyasət kurslarında dəyişikliklər etməyə sövq etdi.

**İİR-in xarici siyasət kursunda dəyişikliklərin başlanması.** İİR-in xarici siyasət taktikasında dəyişikliklər dünyada siyasi dəyişikliklərin artıq başlandığı bir vaxtda, lakin SSRİ-nin süqutundan bir qədər əvvəl özünü göstərməyə başladi. Baş vermiş dəyişikliklər sovet imperiyasının son illərində İran və Rusiya (Sovet İttifaqı) münasibətlərinə də təsir etdi və iki ölkə arasında uzun illər sürmüş «soyuq» münasibətlərə son qoyuldu. «Yenidənqurma» illərində SSRİ-nin xarici siyasətində baş vermiş dəyişikliklərin də İİR-in xarici siyasət taktikasında dəyişikliklərin meydana çıxmasında təsiri olmuşdu. Həmin dövrdə SSRİ-nin xarici siyasəti qarşısında duran üç əsas istiqamətdən biri «ideoloji seçimindən asılı olmayaraq bütün dünya dövlətləri ilə sıx əlaqələrin həyata keçirilməsi» idi. İki ölkə arasında münasibətlər isə 1988-ci ildə İran-İraq müharibəsinin bitməsi (qeyd etmək lazımdır ki, SSRİ bu müharibədə İraqı dəstəkləyirdi) və həmin ilin may ayından Sovet qoşunlarının Əfqanıstandan çıxarılmağa başlaması ilə yaxşılaşmağa doğru getdi.[5] 1989-cu ilin 1 yanvar tarixində İİR-in Ali dini rəhbəri Ayatolla Xomeyninin M.Qorbaçova yazdığı məktubun ardınca həmin ilin fevral ayında SSRİ-nin xarici işlər naziri E.Şeverdnadze İrana, bunun ardınca isə həmin vaxt İran Parlamentinin sədri olan Ə.Haşimi-Rəfsəncani iyun ayında Moskvaya səfər etdi. İran KİV-ləri bununla iki ölkə arasında münasibətlərdə yeni mərhələnin başlandığını bildirirdilər ((Bax: 4).

1979-cu ildə İslam inqilabı nəticəsində yaranmış İran İslam Respublikasının xarici siyasət taktikası Ali dini rəhbər seçilmiş Ayatolla Xomeyni tərəfindən irəli sürülmüş antiqərb və antisovet yönlü «Nə Şərq, nə Qərb», sonradan isə daha da təkmilləşdirilərək «Nə Şərq, nə Qərb, yalnız İslam» prinsipinə əsaslanırdı. Həmin prinsip İranı bipolyar dünyada hər iki hegemon ölkədən – həm Sovet imperiyasından, həm də Amerikadan eyni dərəcədə aralı durmağa çağırırdı və onlarla hər cür əlaqələri inkar edirdi. İRNA xəbər agentliyinin (08.06.89) məlumatına əsasən 1989-cu ilin 20-23 iyun tarixində SSRİ-yə səfərindən əvvəl mətbuat konfransı zamanı Ə.Haşimi-Rəfsəncani iki ölkə arasında münasibətlərin «istiləşməsi» təşəbbüsünün də məhz İranın ruhani rəhbəri imam Xomeyniyə məxsus olduğunu bildirmişdi. Məlumata əsasən, İran Parlamenti sədrinin SSRİ-yə səfəri planlaşdırılan zaman ömrünün son günlərini yaşayan imam Xomeyni onunla görüşmüş və «böyük şimal qonşu» ilə münasibətləri yaxşılaşdırmaq üçün çalışmağı məsləhət görmüşdü (9, s.85-86). Göstərilənlər İİR-in qeyd olunan xarici siyasət prinsipinə zidd çıxdığını güman etməyə əsas verir. «Tehran tayms» qəzeti də 20.06.89-cu il tarixli nömrəsində İİR-in Sovet İttifaqı ilə dost münasibətləri qurmağa o qədər də tələsmədiyini, əks təqdirdə bu münasibətlərin ölkənin xarici siyasətinin funda-

[5] Qeyd etmək lazımdır ki, Sovet qoşunlarının Əfqanıstandan çıxarılmasına dair razılıq 1987-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.Qorbaçov və ABŞ prezidenti R.Reyqan arasında danışıqlar zamanı əldə edilmişdi. Qoşunların çıxarılması prosesi 1988-ci ilin may ayında başlamış, 1989-cu ilin 15 fevralında başa çatmışdır.

mental prinsipi olan «Nə Şərq, nə Qərb» prinsipinə zidd olacağını yazırdı (9, s.86-87). Əslində isə Ayatolla Xomeyni ömrünün sonunadək öz prinsiplərinə sadiq qalmışdır və yaranmış siyasi şəraitə uyğun hərəkət edərək islamın təbliğinə çalışmışdır. O, 1980-cı illərin sonunda kommunizm rejiminin süqutunu islam ideologiyasının yayılması üçün bir fürsət hesab edərək və Sovet İttifaqının müsəlman ölkələrində artıq müsəlmanların açıq şəkildə ibadət etmələrindən ruhlanaraq 01 yanvar 1989-cu il tarixdə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.Qorbaçova məktub yazmışdı. Məktubda ona müqəddəs islamın dəyərlərini nəzərdən keçirməyi tövsiyyə etmiş və İİR-i islam aləminin ən qüdrətli istinadgahı olaraq, SSRİ cəmiyyətinin ideoloji sistemində yaranmış boşluğu asanlıqla doldura biləcəyini bəyan etmişdi (Bax: Xomeyninin Qorbaçova məktubu (14)).

İİR-in SSRİ ilə münasibət qurmasının digər səbəbi isə İranın SSRİ-nin xarici siyasətində baş verən dəyişikliklərdən və İttifaq rəhbərləri ilə Qərb ölkələri, o cümlədən ABŞ rəhbərləri arasında yaranmaqda olan əlaqələrdən narahat olması idi. Elə buna görə də Ayatolla Xomeyni kommunizmin məhv olduğu bir dövrdə Qorbaçovun Qərbə meyl etməsindən və bu səbəbdən də İranın arzuolunmaz fəsadlarla üzləşəcəyindən ehtiyat edərək öz məktubunda onu israrla Qərbin və «Böyük şeytan» adlandırdığı Amerikanın əsirinə çevrilməməyə çağırmışdı (BAX: Xomeyninin Qorbaçova məktubu (14)).

**İran KİV-lərində baş verən dəyişikliyə münasibət.** İİR ilə SSRİ arasında münasibətlərin yaranması İran KİV-lərində birtərəfli qrşılanmasa da daha çox təqdir edilirdi. «Əbrar» qəzetinin 25.06.1989-cu il tarixli nömrəsində qeyd edilirdi ki, bu səfər İİR-in dünya arenasında yeni dostlar seçməyə və öz xarici siyasətində qərarlar qəbul etməyə qadir olan müstəqil bir dövlət olduğunu təsdiq etməli idi (9, s.90). «Keyhan İnterneşnl» qəzeti bu səfərin regionda və bütün dünyada sabitliyin yaranması prosesinə müsbət təsir göstərəcəyini yazırdı (9, s.90). «Ettelaat» qəzeti 01.07.1989-cu il tarixli nömrəsində həmin vaxt xarici işlər naziri olan Laricaninin dediklərini şərh edərək göstərirdi ki, bu səfər İİR-in xarici siyasətinin və diplomatiyasının böyük uğurudur. Bu səfərin nəticələri ikitərəfli münasibətlərlə yanaşı həm regionda, həm də bütövlükdə beynəlxalq münasibətlərdə mövcud şəraitə əhəmiyyətli təsir edəcəkdir (9, s.90). «Comhuri-ye Eslami» qəzetinin 03.07.1989-cu il tarixli nömrəsində Rəfsancaninin SSRİ-nin köməyi olmadan möhkəm sülhün bərqərar olmamsının mümkün olmadığını qeyd etdiyi göstərilirdi (9, s.90). H.Rəfsəncani SSRİ səfərindən qayıtdıqdan sonra iki ölkə arasında əlaqələrin mehriban qonşuluq, bir-birinin suverenliyinə və istiqlaliyyətinə hörmət və bir-birinin daxili işlərinə qarışmamaq prinsipinə əsaslanaraq qurulduğunu bildirmişdi (9, s.90).

İran İslam Respublikasının xarici siyasət kursunda əsas dəyişikliklər Ali dini rəhbər Ayatolla Xomeyninin vəfatından (1989) və SSRİ-nin süqutundan (dekabr, 1991) sonra – yeni geopolitik dəuişikliklərin təsiri ilə baş verdi.

**İİR-in üzləşdiyi problemlər və onun Qafqaz siyasəti.** İran Sovet imperiyasını hərbi və ideoloji cəhətdən təhlükəli rəqib və onun torpaqlarını istədiyi vaxt işğal edə biləcək bir qüvvə olaraq görürdüsə də onun süqutu və köhnə sistemin yenisi ilə əvəz olunması ilə İran bir sıra yeni problemlərlə üzləşdi. İİR-in şimal sərhədlərini təşkil edən Qafqaz regionunda yeni güc mərkəzləri yarandı və bu onun təhlükəsizliyi üçün yeni hədələr meydana çıxardı. Şimaldan gələn təhlükəni Amerika və İzrail təhlükəsi əvəz etdi (10, s.28). Rəşd Vahid İslam Azad Universitetinin dosenti, doktor Yusif Zeynalabdin göstərir ki: «SSRİ-nin süqutu İranın şimal sərhədlərində yeni geopolitik regionun yaranmasına səbəb oldu və İranı Qafqaz regionunda yeni rəqabətlər, təzyiqlər və fürsətlər məcmuəsi ilə üzbəüz qoydu» (16).

İranın Qafqazda fəaliyyətini araşdıran tədqiqatçı Q.N.Meşkini qeyd edir ki, 90-cı illərin əvvəllində İranın siyasi, iqtisadi, mədəni görüşləri üçün yeni meydan açıldı və re-

gionda əsas rola malik olmaq İranın haqqı idi. Lakin Qafqazda ona mane olan və rolunu zəiflədən bir sıra amillərlə üzləşdi (5). Beləliklə, İran İslam Respublikası həmin dövrdən başlayaraq bugünədək Qafqaz regionunda öz siyasətini bir sıra daxili və xarici amillərin təsiri ilə formalaşdırmağa məcburdur.

**Millətçilik amili.** İlk dövrdə baş verən dəyişikliklərə İİR-də müxtəlif prizmalardan baxırdılar. Bir qrup baş verənlərin millətçilik meyllərindən irəli gəldiyi fikrində idi və bu, ərazisində 20 milyondan çox azərbaycanlı türkünün yaşadığı İranı narahat edirdi. SSRİ-nin süqutundan sonra Azərbaycanın müstəqilliyinin ilk olaraq Türkiyə tərəfindən (noyabr, 1991) tanınması da İranın narahatçılığına səbəb oldu. İranda ehtiyat edirdilər ki, Türkiyənin bu addımı müstəqil Azərbaycanı «Böyük Azərbaycan» yaratmağa ruhlandıra bilər və İran azərbaycanlıları bu ideyanı dəstəkləyərlər. Xüsusilə də həmin dövrdə Azərbaycan rəhbərliyinin milliyyətçi çıxışları İranın bu təşvişini daha da artırırdı (6). İran və Rusiya Türkiyə, Azərbaycan və Mərkəzi Asiyanın yeni müstəqil olmuş türk dövlətlərinin birləşərək iki dövlət arasında «türk qovşağı» əmələ gətirəcəyindən, bununla da regionda yeni güc mərkəzinin yaranacağından narahat idilər. Hər iki dövlətin ərazisində çox sayda türk xalqlarının yaşaması ölkələrin narahatçılığını daha da artırırdı. Hər iki ölkə Qafqazı nəzarətdə saxlamaq, bununla da Türkiyə ilə Mərkəzi Asiyanın türk dövlətlərini birləşdirən halqanı qırmaq, daha dəqiq desək, halqanın birləşməsinə mane olmaq, yeni müstəqil dövlətləri isə öz təsirləri altında saxlamaq və türkçülük ideyasının yayılmasının qarşısını almaq üçün regionda nüfuzlarını qoruyub saxlamağa çalışırdılar.

Yeni müstəqil olmuş müsəlman ölkələrində Rusiyanın boş qalmış yerini radikal islamın tutacağından ehtiyat edən Qərb dövlətləri də öz növbəsində həmin ölkələri, xüsusilə də türk-müsəlman ölkələrini Türkiyə inkişaf modelini qəbul etməyə çağırırdılar. Bu məqsədlə Türkiyənin həmin ölkələrlə tarixi, mədəni, etnik və dil əlaqələrini ön plana çəkirdilər. Bu səbəbdəndir ki, rəsmi İran Türkiyəni pantürkizmdə, Qərbi isə pantürkizmi dəstəkləməkdə ittiham edirdi (6).

**Din amili.** Yeri gəlmişkən qeyd etmək lazımdır ki, İranda baş verən dəyişikliklərə dini məsələlər çərçivəsindən də baxanlar və yeni dövlətlərin (Qafqazın və Mərkəzi Asiyanın müstəqillik əldə etmiş yeni müsəlman dövlətlərinin) din ətrafında («İslam birliyi») birləşməsi zərurətini müdafiə edənlər də az deyildi (13). Qafqaz və Mərkəzi Asiya regionlarının müsəlman əhalisi İranın dini maraqları obyekti sayılırdı və İran dövləti öz təsirini gücləndirmək məqsədi ilə İslamı yenidən dirçəltmək və inkişaf etməyə çalışırdı. Lakin İran həmin dövlətləri din ətrafında birləşmək istəyini reallaşdıra bilmədi. Buna səbəb, bir tərəfdən İranın özünün regionda baş verən bir sıra məsələlərə dini birlik baxımından deyil ölkənin milli və dövlət maraqları baxımından yanaşması oldu. Məsələn, İranın Çeçenistan hadisələrinə qeyri-müəyyən yanaşmısı və öz mövqeyini yalnız İslam Konfransı Təşkilatı çərçivəsində və humanitar yardımlar vasitəsilə bildirməsi, həmçinin Ermənistan-Azərbaycan qarşıdurmasında bitərəf olması bir müsəlman dövlətinin mahiyyətinə zidd idi. Bir tərəfində xristian, digər tərəfində şiə müsəlman olan toqquşmada bitərəf qalmaq, hətta bəzilərinin fikrincə Ermənistana himayədarlıq mövqeyi tutması onu göstərir ki, İran ideoloji arzuları müqabilində özünün geopolitik narahatçılığına daha çox üstünlük və əhəmiyyət vermişdi. (13; 7, s.108) Ümumiyyətlə, İran islam amilindən yalnız özünün strateji maraqlarına zidd olmayan hallarda istifadə edir.

Digər səbəb isə Cənubi Qafqazda yeganə müsəlman dövləti olan Azərbaycanda dini maraqlardan çox milli maraqların üstün tutulması oldu. Buna görə də İranın Azərbaycanda və ümumiyyətlə Qafqazda öz yerini möhkəmlətmək cəhdləri onun üçün gözlədiyi nəticələri vermədi. İran hökuməti Azərbaycan İslam partiyasını dəstəklədiyi və ona dini-siyasi fəaliyyəti üçün yardım etdiyinə üçün həmin vaxt Azərbaycan Respub-

likasının prezidenti olan Ə.Elçibəy İran hökumətini Azərbaycanda islam fundamentalizminin yayılmasına yardım etməkdə ittiham etdi. Sonrakı dövrlərdə də Azərbaycanda radikal islamı yaymaqda şübhəli olan bütün islam mərkəzləri bağlandı. Beləliklə, İran İslam Respublikasının digər «İslam inqilabının ixracı» prinsipini də həyata keçirmək mümkün olmadı. İndi İranın xarici aləmdə, sadəcə, islam mədəniyyətini təbliğ etməkdən və yaymaqdan başqa çarəsi qalmadı və Qafqazda da mədəni və tarixi yaxınlığından istifadə edərək mövqeyini möhkəmlətməyə üstünlük verdi. Bundan başqa, yeni müstəqil ölkələrlə, o cümlədən müsəlman ölkələri ilə ticari əlaqələr qurdu və yerli məhsulların həmin ölkələrə ixracını artırdı.

**Qeyri-regional aktorların regionda yerləşməsi.** 1991-ci ildən bu yana İranın Qafqaz siyasətini formalaşdırmasına təsir edən başlıca amil ABŞ-ın regionda geostrateji və geosiyasi maraqlarından və İrana qarşı mövqeyindən asılı olmuşdur. Dünya balansında iki qütbdən biri olan Rusiyanın digər qütb olan Amerika müqabilində öz əvvəlki qüvvəsini itirməsi nəticəsində Amerika və NATO regionda onun boş qalmış yerini doldurmaq fürsəti əldə etdilər və hegemonluq iddialarına başladılar. Q.N.Meşkini yazır: «Ağ evin rəhbərləri düşünürlər ki, SSRİ-nin süqutundan sonra Mərkəzi Asiyada və Qafqazda təhlükəsizlik vakuumu yaranıb. NATO şərqə doğru genişlənməsə və bu vakuumu doldurmasa onu mütləq islam fundamentalizmi və totalitarizm dolduracaq» (5). ABŞ bütün məqamlarda İranın Qafqazda fəaliyyətini məhdudlaşdırmağa çalışır və demək olar ki, buna nail olub.

İran ilə mənafelərində ziddiyyətlərin mövcud olduğu Qərb ölkələrinin Xəzər dənizində şirkətlərinin olması da İranın mövqeyinə uyğun deyil. Xəzərin enerji daşıyıcılarının Avropaya nəqli yollarının mühafizəsinə NATO qoşunlarının adının hallandırılmasını İran öz təhlükəsizliyinə bir hədə olaraq qəbul edir.

1991-ci ildən sonra İsrail dövlətinin Qafqazda və Mərkəzi Asiya regionunda xarici siyasət adı ilə nüfuz qazanmaq cəhdləri də İranı narahat edən cəhətlərdəndir (13).

«İran» qəzetinin 16 iyun 2005-ci il tarixli nömrəsində İsrailin Qafqazda yerləşməkdə müəyyən məqsədlər güddüyü göstərilir:

- Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikilməsini müdafiə etməklə özünün yanacağa olan ehtiyacını ödəmək;
- Qafqaz regionunun istehlak bazarına daxil olmaq;
- casusluq etmək, xüsusilə də İran İslam Respublikası əleyhinə;
- Qafqazda və Mərkəzi Asiyada islamçılıqla mübarizə və s (15).

Məqalədə həmçinin yeni müstəqillik qazanmış Qafqaz və Mərkəzi Asiya ölkələrinin özlərinin də istəmədən İzrailin regiondakı inanılmış bazasına çevrildikləri və bunun da İranın milli təhlükəsizliyi üçün bir hədə hesab olunduğu göstərilir (15).

Qeyri-reqional aktorların Qafqazda yerləşmək və öz mövqelərini möhkəmlətmək cəhdləri müqabilində İran regionu öz təsiri altına sala bilmədi və mövqeyini istədiyi şəkildə möhkəmlətməyə nail olmadı.

**İran-Rusiya əməkdaşlığının əsas amili.** Ölkənin şimal sərhədləri boyunca baş verən hadisələri öz təhlükəsizliyinə hədə olaraq qəbul edən İran həmin təhdidlərin qarşısını almaq üçün tək hərəkət edə bilməyəcəyini görürdü. Buna görə də bir sıra məsələlərdə mənafeinin Rusiyanın mənafei ilə uyğun gəldiyi və baş verən bir çox məsələlərin regionda öz nüfuzunu necə olursa-olsun qoruyub saxlamağa çalışan Rusiyanın da maraqlarına cavab vermədiyi üçün İran Qafqaz regionunda öz mövqeyini Rusiyanın mövqeyi ilə uyğunlaşdırmağı məqsədəuyğun saydı. Qafqaz (o cümlədən Mərkəzi Asiya) regionunda hər iki ölkənin milli maraqlarına və dövlət təhlükəsizliyinə ümumi hədələrin mövcud olması ölkələr arasında strateji əməkdaşlığı zəruri etdi. Beləliklə, Rusiyanın Qafqazda-

kı mövqeyi Tehran üçün təyinedici oldu və İran hökuməti yeni müstəqil ölkələrlə münasibətlərini ilk növbədə Rusiyanın mövqeyini və fikrini nəzərə alaraq qurdu.

Eyni zamanda, müstəqil Rusiya İİR-in beynəlxalq arenada güclü müttəfiqinə və himayədarına çevrildi. İran müstəqil Rusiyanı özünə nüvə arsenalına və BMT TŞ-də veto hüququna malik güclü bir müttəfiq olaraq qazandı.

2008-ci ilin avqustunda baş vermiş Rusiya-Gürcüstan müharibəsində Gürcüstanı Qərb ilə əməkdaşlıq edərək Rusiya sərhədlərinə təhlükə yaratmaqda ittiham etməklə (11) və Rusiyanın hərəkətlərinə bəraət qazandırmaqla, ABŞ-ı və digər qərb dövlətlərini, o cümlədən İsrail dövlətini baş verənlərdə suçlamaqla İran Qafqazda Rusiyanın mövqeyini dəstəklədiyini bir daha sübut etdi. Bundan başqa, Gürcüstanın ABŞ yönlü xarici siyasət yürütməsi və Rusiyadan olan enerji asılılığından qurtulmaq istəyinə rəğmən Saakaşvilinin Amerikanın təzyiqi altında İrandan yanacaq idxalından imtina etməsi İranın maraqlarına ziddir. İran özünün nüvə məsələsi ilə əlaqədar olaraq Amerikanın Cənubi Qafqaz ölkələrinin ərazisini hərbi meydan kimi istifadə edərək ona qarşı hərbi aksiyalar həyata keçirəcəyindən narahatdır. Mövcud vəziyyət Gürcüstan ərazisinin Vaşinqton tərəfindən İran əleyhinə hava hücumlarını həyata keçirmək məqsədi ilə hərbi hava bazası kimi istifadə edilməsi üçün əlverişli şərait yaradır.

Rusiya ilə əməkdaşlıq və strateji tərəfdaşlıq İranın Qafqaz siyasətini formalaşdıran əsas amil olmaqla yanaşı, həmin siyasətin formalaşmasına əngəl törədə biləcək amillərə qarşı duran bir birlikdir.

Q.N.Meşkini bir sıra digər amillərlə yanaşı İranın özünün strategiyası da onun regionda rolunun zəifləməsinə və təsirinin neytrallaşmasına səbəb olduğunu qeyd edir (5).

**Nəticə.** İran İslam Respublikası yarandığı gündən öz xarici siyasət kursunu əsasən islamçılıq üzərində qururdusa, dünyanın siyasi sisteminin dəyişməsi ilə hadisələri daha real dəyərləndirərək ölkənin milli maraqlarını önə çəkməyi daha məqsədəuyğun hesab etdi və onun müasir xarici siyasətində geopolitik maraqlar ön plana keçdi. Bu gün də İran özünün Qafqaz siyasətini ideoloji baxımdan deyil, geopolitik maraqları və mənafeyi baxımından qurur.

Yeni dünya nizamının yarandığı vaxtdan İİR-in Qafqaz siyasəti bir sıra müasir amillərin təsiri ilə formalaşır:

- dünya balansında iki qütbdən biri olan SSRİ-nin digər qütb olan Amerika müqabilində öz əvvəlki qüvvəsini itirməsi nəticəsində Amerika və NATO-nun regionda Rusiyanın boş qalmış yerini doldurmaq cəhdləri və hegemonluq iddiaları;
- 1991-ci ildən sonra İranın təkcə öz təhlükəsizliyinə deyil, bütün Yaxın Şərq üçün ciddi hədə saydığı İsrail dövlətinin Qafqazda və Mərkəzi Asiya regionunda xarici siyasət adı ilə nüfuz qazanmaq cəhdləri;
- Müstəqil Azərbaycan Respublikasında və İran ərazisində yaşayan 20 milyon azərbaycanlının həmrəyliyi və birləşməsi «təhlükəsi»;
- Türkiyə və Mərkəzi Asiyanın türk dövlətlərinin Qafqazda yerləşən türk dövləti olan Azərbaycan vasitəsilə birləşəcəyi, ölkənin şimalında «türk qovşağı»nın yaranacağı və türkçülüyün İrana yayılacağı «təhlükəsi»;
- Xəzər dənizində İran üçün arzuolunmaz dövlətlərə məxsus şirkətlərin yerləşməsi və neft hasilatı ilə məşğul olması;
- xarici dövlətlərin hərbi qüvvələrinin neft yataqlarını və təbii yanacaq nəqli yollarının təhlükəsizliyini təmin etmək adı altında Xəzər dənizində və Qafqaz regionda yerləşdirilməsi təhlükəsi;
- nüvə məsələsi ilə əlaqədar olaraq Cənubi Qafqaz ölkələrinin ərazisindən İrana qarşı hərbi meydan kimi istifadə ediləcəyi təhlükəsi və s.

### *ƏDƏBİYYAT*

1. Ruintən K. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti. Bakı: "Adiloğlu" nəşriyyatı, 2008. – 260c.
2. Ruintən S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-ci illəri). Bakı: "Adiloğlu" nəşriyyatı, 2005. – 236c.
3. Talıblı S. Azərbaycan-İran münasibətlərinin əsas istiqamətləri // Hikmət (elmi araşdırmalar toplusu), 2006, №8, s.53-62
4. Из книги мемуаров бывшего главы МИД СССР Эдуарда Шеварднадзе "Мысли о прошлом и будущем" [http://www.iranembassy.ru/ru/includes/imam.html
5. Мешкини Г.Н. Проблемы и упущенные моменты активности Исламской Республики Иран в Центральной Азии и на Кавказе [http://www.analitika.org/article.php?story=20051226080354461
6. Мустафа Айдын. Турция и государства Кавказа // Центральная Азия и Кавказ [http://www.ca-c.org/c-g/2006/journal_rus/c-g-1/06.aidinru.shtml]
7. Садых-заде О. К анализу некоторых вопросов государственной идеологии в Иране // Возрождение XXI век, август 1999, №18 с.105-110
8. Самедов С. Политика Ирана в Закавказье // Обозреватель. с.111-120
9. Современный Иран: политика и экономика, ЦНИОН АН Аз.ССР. Баку, 1990. №№75-76. 130с.

10. ازغندی علیرضا، سیاست خارجی جمهوری اسلامی ایران. نشر قومس. ۱۳۸۲.

11. امیراحمدیان بهرام. باتلاقی برای بلند پروازان قفقاز (بخش دوم و پایانی). روزنامه "ایران"،۲/۶/۱۳۸۷

12. شریفی م. انقلاب اسلامی ایران و بنیادگرائی اسلامی در آسیای مرکزی و قفقاز // مطالعات سیاسی و اقتصادی، 1388. شماره 162-161، ص. 61-44

13. عارف کسکین، سیاستهای ایران در منطقه ی قفقاز.
[http://www.gunaskam.com/az1/index.php?option=com_content&task=view&id=201&Itemid=1]

14. متن كامل نامه تاريخي امام خميني به گورباچف و پاسخ گورباچف.
http://www.farsnews.com/newstext.php?nn=8510090317

15. هم پیمانان جمهوری آذربایجان. روزنامه «ایران» ۲۶ خرداد ۱۳۸۴

16. یوسف زین العابدین. تحلیل علایق ژئوپلیتیکی ایران در قفقاز
[http://www.arannews.ir/View Detail/?lang=ru&ID=14854&Type=306]


**РУИНТАН КЯМАЛЯ**
***Бакинский славянский университет***

**ИЗМЕНЕНИЯ ВО ВНЕШНЕПОЛИТИЧЕСКИХ ПРИНЦИПАХ ИРИ. СОВРЕМЕННЫЕ ФАКТОРЫ, ФОРМИРУЮЩИЕ КАВКАЗСКУЮ ПОЛИТИКУ ИРАНА**

В статье рассказывается об изменениях во внешнеполитической тактике Исламской Республики Иран в период нового мирового порядка. Также рассматриваются современные факторы, определяющие Кавказскую политику Ирана.

**KAMALA RUINTAN**
***Baku Slavic University***

**CHANGES IN FOREIGN POLICY ISLAMIC REPUBLIC of IRAN. THE MODERN FACTORS, FORMING THE CAUCASIAN POLITICS of IRAN**

In article it is told about changes in foreign policy tactics Islamic Republic of Iran in the new world order. Also are considered the modern factors, determining the Caucasian politics of Iran.

***Rəyçilər: t.e.n.A.Ə.Rəcəbli, t.e.d.M.C.Qasımlı.***
***BSU-nun «Ölkəşünaslıq» ETL-nin 26 may 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür. (protokol № 3)***